

# XX əsr irsi, yeni minilliyin yol xəritəsi

*Ötən əsr texnoloji yeniliklər, sənaye inqilabının davamı, elmi kəşflər və qlobal miqyasda baş verən sosial-siyasi dəyişikliklərlə zəngindir. Eyni zamanda neftin əsas enerji mənbəyinə çevrilməsi səbəbindən bu dövr "neft əsri" kimi tanınır. Həmçinin XX əsrdə elmin sürətlə inkişafı kosmosun fəthi, tibbi irəliləyişlər və informasiya texnologiyalarının inkişafı ilə nəticələndi. XX əsr böyük nailiyyətlərlə yanaşı, həm də ciddi münaqişələr və böhranlarla xarakterizə olunur.*

XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyəti şübhəsiz ki, dövlət müstəqilliyinin bərpası olmuşdur. Müstəqil dövlətimizin Konstitusiyası qəbul edilmiş, qanunvericiliyi, hakimiyyətin bölünmə prinsipləri və hüquq normaları dünya standartlarına uyğunlaşdırılmış, bir çox dövlətlərlə əməkdaşlıq həyata keçirilmişdir. Müstəqillik dövrünün ilk illəri siyasi-iqtisadi böhranlarla müşayiət olunsa da, müasir Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin rəhbərliyi ilə ölkəmiz qısa müddətdə daxili sabitlik əldə etmiş, iqtisadi islahatlara başlanmış və beynəlxalq aləmdə mövqeyini möhkəmləndirmişdir. Ulu öndərin uzaqgörən siyasəti nəticəsində "Əsrin müqaviləsi" kimi böyük enerji layihələri reallaşmış və Azərbaycanın beynəlxalq enerji bazarlarında mühüm yer tutmuşdur.

Bu illər ərzində bütün sahələri əhatə edən köklü dəyişikliklər və dərin islahatlar aparılmışdır. Azərbaycan milli neft strategiyası və konsepsiyasını həyata keçirməyə başlamış, xarici dövlətlərin aparıcı neft şirkətləri ilə müqavilələr bağlayaraq dünya iqtisadiyyatına inteqrasiya etmişdir. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət, ölkəmizin iqtisadi inkişafına və beynəlxalq aləmdə nüfuzunun artmasına mühüm töhfələr vermişdir.

Azərbaycan Respublikası bu dövrdə əlverişli coğrafi mövqeyi və zəngin təbii ehtiyatlarıyla Şərq və Qərb arasında strateji körpü rolunu oynamışdır. Böyük İpək Yolunun bərpası və Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması istiqamətində mühüm addımlar atılmışdır. Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının hasilatı və dünya bazarlarına nəqli üçün göstərilən səylər, Azərbaycanın beynəlxalq arenada əhəmiyyətini daha da artırmışdır.

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan qısa müddətdə dünya birliyinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Dövlətimiz Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, Qara dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və Asiya İnkişaf Bankına üzv olmuşdur. Bundan əlavə, Parlamentlərarası İttifaq, NATO və digər beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əlaqələr qurulmuşdur.

Heydər Əliyev 2000-ci ilin son günlərində Azərbaycan xalqına müraciətində ölkəmizin müstəqillik illərində əldə etdiyi nailiyyətlərdən və qarşıda duran vəzifələrdən bəhs etmişdir. O, Azərbaycanın dünya birliyində layiqli yer tutması üçün zamanın tələblərinə uyğunlaşmağın və müasir texnologiyaların mənimsənilməsinin vacibliyini qeyd etmişdir. Eyni zamanda ölkəmizin geostrateji əhəmiyyətini və beynəlxalq layihələrdə iştirakını xüsusi vurğulamışdır.

XX əsr Azərbaycanın tarixi inkişafında dərin iz qoymuş, xalqımız üçün həm milli, həm də mədəni irs baxımından əhəmiyyətli bir dövr olmuşdur. Bu əsr ölkəmizin dünyaşöhrətli mədəniyyət xadimlərinin, aktyorların, heykəltaraşların və yaradıcı şəxslərin yetişdiyi bir dövr kimi tarixin parlaq səhifələrindən birinə çevrilmişdir.

Ötən yüzillik Azərbaycan qadınının cəmiyyətdə mövqeyinin möhkəmləndiyi bir dövrdür. Bu dövr qadınların təkcə ailədə deyil, eyni zamanda ictimai və peşəkar həyatda da fəallığını artırdığı bir mərhələ olmuşdur. Qadınlar təhsilə cəlb olunmuş, müxtəlif sahələrdə çalışaraq mühüm nailiyyətlər əldə etmişlər. Azərbaycan qadını elmdə, siyasətdə, incəsənətdə və digər sahələrdə öz bacarığını nümayiş etdirərək ölkənin inkişafına töhfələr vermişdir.

Bu dövrdə qadın hüquqlarının müdafiəsi də ön planda olmuşdur. 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul olunması ilə qadınlar və kişilər arasında bərabərlik prinsipinin hüquqi cəhətdən təsdiqlənməsi qadınların hüquqlarının qorunmasında mühüm bir addımdır. Bu hüquqi baza Azərbaycan cəmiyyətində gender bərabərliyinin təmin olunması üçün əsas olmuşdur.

XX əsrdə xalqımızın milli kimliyini əks etdirən əsərlər yaradılmış, mədəni irsimiz dünyaya tanıdılmışdır. Dünyaşöhrətli bəstəkar Üzeyir Hacıbəyovun, heykəltaraş Ömər Eldarovun, rəssam Səttar Bəhlulzadənin əsərləri milli mədəniyyətimizin dəyərli nümunələridir. Müstəqillik illərində milli kimliyimizin tərkib hissəsi olan mədəniyyətimiz ideoloji buxovlardan azad edilmiş, uzun illər boyu üzərinə qoyulmuş qadağalar aradan qaldırılmışdır. Ümummilli lider Heydər Əliyev bu mövzuda fikirlərini xüsusi vurğulamış, Azərbaycanın mədəni irsinin yenidən təhlil edilərək beynəlxalq arenaya təqdim olunduğunu bildirmişdir.

Bu illər ərzində Azərbaycanın mədəniyyəti təkcə ölkə daxilində deyil, dünya səhnəsində də tanıdılmışdır. Milli sənətimizin inciləri və mədəniyyətimizin bəşəri dəyərlərə verdiyi töhfələr haqqında geniş miqyasda işlər görülmüş, müxtəlif beynəlxalq tədbirlər vasitəsilə dünya xalqları ilə mədəni dialoq qurulmuşdur. Müstəqillik illərində keçirilən mühüm tədbirlərdən biri Məhəmməd Füzulinin 500 illik yubileyi olmuşdur. Bu yubiley yalnız poeziya bayramı deyil, eyni zamanda milli mədəniyyətimizin və Azərbaycan dövlətçiliyinin təntənəsi kimi qeyd edilmişdir. Heydər Əliyev tədbirin əhəmiyyətini vurğulayaraq bildirmişdir ki, bu bayram Azərbaycan müstəqilliyinin bir göstəricisi olmuş, xalqımızın öz dəyərlərini dünya ilə bölüşmək bacarığını nümayiş etdirmişdir. Füzulinin yubileyi çərçivəsində UNESCO-nun dəstəyi ilə bir sıra beynəlxalq tədbirlər təşkil edilmiş, bu tədbirlərdə müxtəlif ölkələrin nümayəndələri iştirak etmişdir. Yubiley tədbirləri çərçivəsində Füzulinin poeziyası vasitəsilə Azərbaycan xalqının zəngin mədəniyyəti, tarixi və ədəbi irsi haqqında dünya xalqlarına dərin məlumat verilmişdir. Əsərlərində humanizm, sevgi və gözəlliyi tərənnüm edən Füzuli, həm Azərbaycan mədəniyyətinin, həm də bəşəri dəyərlərin böyük daşıyıcısı kimi tanıdılmışdır.

XX əsr Azərbaycan xalqı üçün həm nailiyyətlər və inkişaf, həm də ağır sınaqlar, mübarizələrlə yadda qalmışdır. Xalqımız bu dövrdə öz müstəqilliyi uğrunda böyük qurbanlar vermişdir. Ermənistanın Azərbaycana qarşı başladığı işğalçılıq siyasəti və Qarabağın 1988-ci ildən başlayaraq münaqişə zonasına çevrilməsi xalqımız üçün ən ağır sınaqlardan biri olmuşdur. Xalqımız öz torpaqlarını qorumaq və suverenliyini bərpa etmək məqsədilə əzmkarlıqla mübarizə aparmışdır.

1990-cı ilin 20 Yanvar faciəsi Azərbaycan xalqının azadlıq mübarizəsinin ən qanlı səhifələrindən biri olmuşdur. Sovet ordusunun Bakıdakı dinc əhaliyə qarşı törətdiyi soyqırımı xalqımızı həm sarsıtmış, həm də daha sıx birləşdirmişdir. Bu hadisələr Azərbaycanın müstəqillik yolunda dönməz addımlarının başlanğıcı idi.

XX əsrin sonlarına yaxın müstəqilliyini bərpa edən Azərbaycan Respublikası dünya birliyində öz yerini tutmuş, beynəlxalq aləmdə haqq səsini çatdırmaq üçün diplomatik uğurlar əldə etmişdir. Qarabağ məsələsi həm hərbi, həm də diplomatik müstəvidə Azərbaycanın prioritetlərindən biri olmuşdur.

Beləliklə, XX əsr Azərbaycan xalqının azadlığı və torpaqları uğrunda apardığı mübarizənin ən parlaq səhifələri ilə yadda qalmışdır. Qarabağ uğrunda mübarizə milli birliyin və xalqımızın əzminin simvoluna çevrilmişdir. Bu mübarizə xalqımızın tarixində həm də qürurverici anlar kimi əbədiləşmişdir. Ümummilli lider Heydər Əliyevin müstəqillik illərində əsasını qoyduğu möhkəm təməllər bu gün Azərbaycanın yüksələn xətlə inkişafını təmin edir. Məhz uzaqgörən siyasət nəticəsində dövlətimizin iqtisadi, siyasi və sosial istiqamətdə inkişaf strategiyası müəyyən edilmişdir.

Hazırda ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan bu strategiyanı uğurla davam etdirərək beynəlxalq aləmdə nüfuzunu artırır. Onun rəhbərliyi ilə həyata keçirilən islahatlar və icra edilən böyük miqyaslı layihələr ölkəmizi həm regionda, həm də qlobal səviyyədə əsas aktorlardan birinə çevirmişdir. Eyni zamanda Azərbaycan beynəlxalq siyasi platformalarda da fəal iştirak edir. BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, Qoşulmama Hərəkatına uğurlu sədrliyi, İslam Əməkdaşlıq Təşkilatı və b. beynəlxalq qurumlarla fəal əməkdaşlığı Azərbaycana olan etimadı daha da artırmışdır. Xüsusilə, İkinci Qarabağ müharibəsində şanlı Qələbədən sonra ölkəmizin dünya miqyasında nüfuzu daha da yüksəlmişdir.

Heydər Əliyev irsinin davamı olaraq Azərbaycan bu gün öz mədəniyyətini, tarixini və milli irsini dünyada təbliğ edir. "Böyük Qayıdış" proqramı çərçivəsində işğaldan azad edilmiş torpaqlarımızda sürətlə bərpa və yenidənqurma işləri aparılır. Bu ərazilərin iqtisadiyyatımıza inteqrasiyası ilə yanaşı, Qarabağ regionu beynəlxalq sərgilər, forumlar və tədbirlərin keçirildiyi məkan olaraq dünyanın diqqət mərkəzinə çevrilmişdir.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**